# SÖZ TAXTINDA MÜLK SAHİBİ

## *Yazıçı dostum Hüseyn Məmmədovun yaradıcılığına bir nəzər*



Hər dəfə sözə bağlı olan söz adamlarından danışmaq istəyi yarananda tələsik yaza bilmirəm.

Bəlkə də bu sözə, söz adamlarına olan hörmətdən, mənim məsuliyyət hiss etməyimdən irəli gəlir. Min illərdir ki, sözdən nadir incilər yaradanlar hələ sözün hədd zirvəsini fəth edə bilməyiblər: onlar sözün ecazkar qüdrəti, əzəməti, gücü, əsrarəngiz təbiəti, tabloları qarşısında aciz qaldıqlarını etiraf ediblər. Burası da var ki, söz onun əsl sahiblərini yaşadır, qədir-qiymətini bilənləri əsrlərdən-əsrə aparır, bitib-tükənmək bilmir...

Sözü məqamında işlədən, kimliyini ifadə edən qayım sahiblərindən söz açmaq istəyirəm. Oxucunu çox gözlətməyim. Hüsey İsa oğlu Məmmədovu deyirəm. Öncə onu diqqətə çatdırım ki, sözə sevgi və hörmət hissləri Hüseyn müəllimdə, yazıçı dostumda, qələmə və yazdığına hörmət qoyan adamda, hallaığı hər şeydən uca tutan uca adamda daha çoxdur. Ayrı vaxtlarda yazdığı "Vətənin ölməz şəhidləri", "Xatirələrin izi ilə", "Sazın, sözün vəhdəti", "Olumla ölüm arasında", "Yaralı durna" kitablarını oxuyub belə qənaətə gəldim. Hüseyn Məmmədov sözə hörmətlə yanaşır, söz taxtında mülk sahibidir, ən əsası, ürəyində nə varsa üzündən oxunur, onun qəlbində kinküdurət yoxdur, pisliyə yaddır. İncə qəlb sahibi olan Hüseyn müəllim həyatda necədirsə, əsərlərində də bunu büruzə verir. Yazıb çap etdirdiyi povest, hekayə və məqalələrin çoxu avtobioqrafik səciyyə daşıyır. Ona görə də əsərləri daha inandırıcı və cəlbedici, tərbiyəvidir, oxucunun qəlbinə yol tapır, yadda qalır, düşündürür. Elə məhz yazıçıdan tələb edilən əsas qayə, vəzifə budur.

Yazıçı Hüseyn Məmmədov Gədəbəy (Gəl, a bəy olmalıdır) rayonunda göz açıb. Uca dağların havasından təmizlik, dağlardan ucalıq, insanlarından mərdlik, hallallıq, milli-mənəvi dəyərlərimizə ehtiram əxz etmişdir. Bu onun yazdığı əsərlərdə özünü göstərir. Yazıçının kitablarını bir-bir təhlil etmək tədqiqatçıların öhdəsinə düşür. Yaxınlarda onun "Bütöv Azərbaycan" qəzetində çap olunmuş "Kədər tablosunda sevinc işığı" adlı hekayəsini oxudum. Sərlövhədə deyildiyi kimi bu hekayə kədərləndirici olsa da, sevinc hissi ilə, gənc qızın həyatında baş vermiş qəzavü-qədərdən sonrakı yaşantıları ilə yadda qaldı. Hekayənin əvvəlindən bəlli olur ki, Vəfa Gəncədə doğulub. Atasının işi ilə bağlı Moskvaya köçüblər. Anası ilə gəzməyə çıxan qızcığaz anasının icazəsi ilə səkinin kənarındakı çobanyastığı çiçəklərini toplayır və səkinin kənarında ayaqlarını sallayıb əyləşir. Bir yük maşını məsafəni düzgün seçmədiyi üçün Vəfanın ayaqlarını beton səkiyə sıxaraq şikəst edir. Vəfanı tez xəstəxanay çatdırıb əməliiyat edirlər, sonra qızı ölmüş bilib ölüxanada yerləşdirirlər. Həkimlər onu yarmaq istəyəndə hiss edirlər ki, uşaq nəfəs alır. Onu palataya gətirib qan köçürürlər, qız yaşamaq uğrunda mübarizə aparır. Vəfanın hər iki ayağını amputasiya edirlər, o yaşasa da valideynlərini kədər bürüyür. Nəhayət, tibb bacısı Mariyanın qayğısı və insanpərvərliyi sayəsində Vəfada həyat eşqi, inam hissi yaranır, həyata sevgisi artır. Ayaqları olmasa da Vəfa cəmiyyətə gərəkli olur. Protez ayaqları ilə Bakıda ali təhsil alır, İstanbulda müalicəsini davam etdirir. Bir dəfə parkda bir gənc oğlan Vəfanı görüb ona vurulur. Gəncin valideynləri əvvəlcə tərəddüd edirlər, sonra evliliyə razılıq verirlər...

Hekayə nikbin notlarla bitir, insanın iradəsi qalib gəlir. Yaxşılıq, yaxşı adamlar unudulmur. Yazıçının ustalığı burada aydın görünür. O, bununla da insanlara mesaj göndərir.

Qeyd elədiyimiz kimi, Hüseyn Məmmədovun yaradıcılığında bəşəri hisslər, xeyrin şər üzərində qələbəsi, humanizm və xeyirxahlıq, şəxsiyyətə hörmət, sözə ehtiram əsas yer tutur. Bunu"Sazın, sözün vəhdəti"kitabında aydın görmək olur. Ustad aşıq Hüseyn Saraclıdan tutmuş, onun sələflərinə, aşıq Ağamurada,aşıq məktəbinin davamçılarınadək silsilə məqalələrhəsr edən Hüseyn İsa oğlu Azərbaycanın məşhur şairlərindən də yan ötmür. Xalq şairi Zəlimxan Yaquba, Akif Səmədə, Əlizadə Nuriyə, Nəcibə İlkinə, güneyli şair Əli (Ellər) Abdullahiyə, Şahlar Qəribliyə, Rəhilə Qaralovaya, Gülnar Səmaya, Zəfər Dumanlıya, istedadlı publisist, "Bütöv Azərbaycan"qəzetinin baş redaktoru Tamxil Ziyəddinoğluna, cənublu şair və aşıqlara həsr etdiyi oçerk, məqalə və esselər oxucuya yeni biliklər verir, cəmiyyət üçün xüsusi əhəmiyyət ifadə edən vətəndaş-yazıçı duyğusu diqqətə çatdırılır. Azərbaycanın bütövlüyü uğrunda canından keçmiş qəhrəman şəhidlərin zəfər yoluna güzgü tutan yazıları Hüseyn müəllimin duyğu süzgəcindən keçərək, geniş auditoriyaya təqdim olunur, hər kəsdə vətənə məhəbbət alovlandırır.

Hüseyn Məmmədov hər şeydən yox, lazım olandan yazır, onun maraq dairəsinə daxil olan həqiqətləri qələmə alır. Onlardan biri və ən mühümü Şah İsmayıl Xətainin 530 illiyinə həsr elədiyi "Bir əlində qılınc, bir əlində saz"... adlı oçerkdir. Qolubükülməz sərkərdə, dövlət başçısı, şair, aşıq, düşmənə əyilməyən, qüdrətli Səfəvi imperiyasını yaradan, qəhrəmanlıq simvolu olan Şah babamızın dünya şöhrəti bu gün də solmayıb, parlaqdır. O, dövrünün ən qüdrətli söz ustası, xalq yaradıcılığından, folklorumuzdan, həqiqətdən ruh alan "Dəhnamə" (On məktub) poemasını, "Nəsihətnamə" kimi



məsnəvini, "Divan"ı bəxş etmişdir.-Hüseym Məmmədov yazır: "Şah İsmayıl Xətainin ən böyük xidmətlərindən biri də onun sarayına dövrünün tanınmış şairləri və aşıq-ozanlarını cəlb etməsi idi. Böyük şair ətrafına tanınmış saz və söz xiridarlarını görməkdən mənəvi zövq alır, onların hər birinə diqqət və qayğı ilə yanaşırdı. Onun sarayında Azərbaycanın ozan sənətində adı hörmətlə anılan Aşıq Qurbani, Miskin Abdal, Həbibi kimi qüdrətli saz-söz biliciləri fəaliyyət göstərirdi.

Şah İsmayılın bədii yaradıcılığının hüsnünü aşıq şeiri üslubunda yazdığı əsərləri bəzəyir. Təkcə onun bayatılarını nəzərdən keçirdikdə bu qənaətə gəlirsən ki, o folklorumuza, aşıq şeirinə yaxşı bələd olmuşdur".

Eşqin əvəzsiz, təkrarsız tərənnümçüsü Məhəmməd Füzuli Şah İsmayıl Xətainin şəxsiyyəti, hünəri, Azərbaycana bağlılığı, yaradıcılığı qarşısında vəcdə gəlmiş, böyük şövqlə "Bəngü-badə" əsərini ona həsr etmişdir. Xətaiyə on məhəbbət dastanı həsr olunmuşdur. Bir əlində qılınc, bir əlində qələm onun tutduğu zirvəyə kimsə sahib ola bilməmişdir.

Hüseyn müəllim, sənin bədii-sənədli yaradıcılığına, şəxsiyyətinə dostyana nəzər saldım. Nəyi unutmuşamsa, üzürlü hesab edin. Söz taxtının mülk sahibi kimi yeni əsərlərinizlə görüşünüzə gələcəyik.

Işlədiyiniz "Bütöv Azərbaycan" qəzetinin cəfakeş və mehriban kollektivinin üzvü kimi sizi qarşıda yeni uğurlar gözləyir.

***İdris ŞÜKÜRLÜ,***
***Səadət SULTAN***